*Azərbaycan Prezidentinin ABŞ-a səfəri Cənubi Qafqaz regionunda tarixi bir dönüş nöqtəsidir. Dünyanın ən güclü və nüfuzlu dövlətlərindən biri olan Amerika Birləşmiş Ştatlarının təşəbbüsü ilə uzun illərdir davam edən münaqişədə sülhün bərqərar olması istiqamətində atılan addımlar böyük əhəmiyyət kəsb edir. Bu səfər çərçivəsində Prezident İlham Əliyev ölkəmizin milli maraqlarını ən yüksək səviyyədə müdafiə etməklə yanaşı, beynəlxalq hüquqa əsaslanan prinsipial mövqeyini də qətiyyətlə ortaya qoydu.*



# Azərbaycan və ABŞ arasında qarşılıqlı etimad sülhün əsas şərtidir



Dövlətimizin əsas tələbi Ermənistanın öz konstitusiyasında dəyişiklik etməsi və ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılması şərti ilə sülh müqaviləsinin imzalanması oldu. Bu prinsip Azərbaycan üçün ərazi bütövlüyünün və dövlət suverenliyinin təmin olunmasının zəruriliyini ifadə edir və regiona uzunmüddətli, dayanıqlı sülhün gətirilməsi üçün əsas şərt kimi qoyulur. ABŞ-ın da şərtlərimizlə razılaşması Azərbaycanın beynəlxalq hüquqa söykənən və regionda sabitlik yaradan siyasətinin beynəlxalq səviyyədə tanınması deməkdir.

Dünyanın diqqəti görüşün nəticələrinə yönəldi, çünki burada yalnız regional münaqişənin həlli yox, həm də Azərbaycanın strateji tərəfdaşlarla, xüsusilə ABŞ ilə əməkdaşlığının yeni mərhələyə keçməsi müzakirə olundu. Azərbaycan-ABŞ münasibətlərinin zəngin və çoxşaxəli tarixə malik olmasına baxmayaraq, son illərdə əlaqələr gərginləşmişdi. Lakin Donald Tramp administrasiyası Azərbaycanın regiondakı artan nüfuzunu, həmçinin qlobal arenada oynadığı rolu yüksək qiymətləndirərək münasibətləri dərinləşdirdi. Görüşdə həm regional təhlükəsizliyin təmin olunması, həm də hərbi-texniki, iqtisadi və diplomatik əməkdaşlığın dərinləşdirilməsi məsələləri geniş şəkildə müzakirə edildi. ABŞ ilə strateji tərəfdaşlıq Azərbaycanın milli maraqlarını müdafiə etmək və regionda sülhün möhkəmlənməsi üçün yeni imkanlar açır. Bu münasibətlər Azərbaycanın müdafiə qabiliyyətini artıracaq, həm də iqtisadi və tranzit potensialının genişlənməsinə təkan verəcək. Prezident İlham Əliyevin ABŞ-a səfəri və Vaşinqtonda keçirilən üçtərəfli görüş Cənubi Qafqazda sülh və sabitlik istiqamətində əhəmiyyətli siyasi irəliləyişlərin təməlini qoydu. Bu addımlar yalnız münaqişənin tamamilə həllinə deyil, həm də bölgənin sosial-iqtisadi inkişafına və beynəlxalq münasibətlərdə Azərbaycanın mövqeyinin güclənməsinə xidmət edir. Azərbaycan və ABŞ arasında qurulan qarşılıqlı etimad və strateji əməkdaşlıq gələcəkdə regionda dayanıqlı sülhün təmin olunması üçün əsas şərtdir.

**Aydın MİRZƏZADƏ,**
**Milli Məclisin deputatı.**

Respublika .- 2025.- 10 avqust(№166).- S.10.